**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

# SİLLABUS

**Vergilər və vergitutma**

***( 5 kredit (AKTS))***

***Müəllim haqqında məlumat***


***Müəllim(mühazirə):Ass. Məsimli Nərmin Afiq qızı***

***Müəllim(seminar):Ass.Məsimli Nərmin Afiq qızı***

Kafedra: **Maliyyə və iqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 118**

**İş nömrəsi: 268 94 53**

**Mob**: **055 917 70 90**

**İş saatları: 8:00 – 16:00**

**E-mail: nermin11117@gmail.com**


**GƏNCƏ-2021**

Müəllim iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxunulmalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə yarada bilərlər. E-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim olunan fənlə əlaqəli informasiyalarla tanış ola bilərlər.

## *Dərs cədvəli*

Dərslər aşağıdakı zamanlarda əyani qaydada auditoriyalada keçirilir:

Çərşənbə axşamı,10:10-11:30 (mühazirə)
Cümə, 10:10-11:30 (seminar)

## *Fənnin təsviri*

Bu fənnin tədris edilməsində əasa məqsəd tələbələri vergilərin dünyada və Azərbaycanda yaranma tarixi, inkişaf istiqamətləri və mövcud durumu ilə tanış etmək, eyni zamanda vergitutmanın tətbiqində istifadə olunan metodlarla tanış etmək, onların vergitutma prosesini dərk etmələrinə köməklik göstərmək və vergilərin hesablanması, ödənilməsi və bu prosesə nəzarət edilməsi qabiliyyətini formalaşdırmaqdır. Həmçinin tələbələrlə vergitutma sahəsində beynəlxalq təcrübəni bilərək yerli vergilərlə müqayisə etmək bacarığının öyrədilməsidir.

Bu baxımdan vergilərin yaranma tarixi, inkişaf mərhələləri qədim dövrdə, orta əsrlərdə və müasir dövrümüzdə xüsusiyyətləri dünya və Azərbaycan timsalında təhlil olunacaqdır. Eyni zamanda vergitutma sahəsində nəzəriyyələrin mahiyyəti, üstün və çatımayan xüsusiyyətləri və tətbiqi imkanları, vergitutmanın iqtisadi mahiyyəti açıqlanacaqdır. Azərbaycan Respublikasında qüvvədə olan vergi məcəlləsinə uyğun olaraq vergi orqanlarının və vergi ödəyicilərinin hüquqları, vəzifələri və məsuliyyəti təhlil olunacaqdır. Vergitutma sahəsində idarəetmənin həyata keçirilməsində xüsusi rola malik vergi nəzarətinin mahiyyəti, formaları, növləri, vergi ödəyicilərinin uçotunun aparılması qaydası, səyyar vergi nəzarətinin aparılmasına hazırlıq, vergi yoxlaması zamanı görüləsi işlər, yoxlamanın nəticəsinə dair aktın tərtib olunması, baxılması, qərarın qəbul edilməsi və icrası məsələləri ətraflı təhlil ediləcək, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət halları və şərtləri sizlərə çatdırılacaqdır. Vergitutma sahəsində xüsusi önəm daşıyan vergilərin hesablanması, ödənilməsi və bəyənnamə təqdim edilməsi misallarla şərh olunacaqdır. Hazırda Azərbaycanda tətbiq olunan - fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi, əlavə dəyər vergisi, aksizlər, əmlak vergisi, torpaq vergisi, yol vergisi, mədən vergisi, sadələşdirilmiş vergilərin mahiyyəti vergitutma obyekti, vergi ödəyicilərinin vergilərinin hesablanması, vergi dərəcələri, azadolma və güzəştlər və vergilərin müvafiq büdcəyə köçürülməsi qaydaları şərh olunacaqdır.

Habelə Azərbaycanın vergi sistemi öyrənildikdən sonra beynəlxalq vergitutmanın xüsusiyyətləri ilə müqayisə ediləcəkdir.
Yekunda biz biləcəyik ki, ideal vergi sistemi heç bir cəmiyyətə müfəssər olmamışdır. Aparılan vergi islahatları bu məqsədə xidmət edir. Vergilər və vergitutma fənni iqtisadi nəzəriyyə, iqtisadi hüquq və sığorta fənnləri ilə qarşılıqlı əlaqədə öyrənilir.

***Fənn tələbələrə aşağıdakıları təmin edəcəkdir:***

- vergilərin yaranma tarixi, inkişaf mərhələləri qədim dövrdə, orta əsrlərdə və müasir dövrümüzdə xüsusiyyətləri dünya və Azərbaycan timsalında təhlil aspektlərini öyrənib təhlil etmək;
- Azərbaycan Respublikasında qüvvədə olan vergi məcəlləsinə uyğun olaraq vergi orqanlarının və vergi ödəyicilərinin hüquqları, vəzifələri və məsuliyyətlərinin müəyyənləşdirilib öyrənilməsi;
- vergi nəzarətinin mahiyyəti, formaları, növləri, vergi ödəyicilərinin uçotunun aparılması qaydalarının müzakirə edilməsi;
- Azərbaycanda tətbiq olunan - fiziki şəxslərin gəlir vergisinin mahiyyəti və vergitutma obyektinin, vergi ödəyicilərinin vergilərinin hesablanmasının, vergi dərəcələrinin, azadolma və güzəştlər və vergilərin müvafiq büdcəyə köçürülməsi qaydalarının öyrənilməsi;
- Azərbaycanda tətbiq olunan - hüquqi şəxslərin mənfəət vergisinin mahiyyəti vergitutma obyektinin, vergi ödəyicilərinin vergilərinin hesablanmasının, vergi dərəcələri, azadolma və güzəştlər və vergilərin müvafiq büdcəyə köçürülməsi qaydalarının aydınlaşdırılması;
- əlavə dəyər vergisinin vergitutma obyektinin, vergi ödəyicilərinin vergilərinin hesablanmasının, vergi dərəcələrinin, azadolma və güzəştlər və vergilərin müvafiq büdcəyə köçürülməsi qaydalarının müəyyənləşdirilməsi;
- aksizlər və əmlak vergisinin hesablanması qaydalarının və vergi dərəcələrinin müəyyənləşdirilməsi;
- torpaq vergisi, həmçinin yol vergisinin mahiyyəti və vergitutma obyektinin, vergi dərəcələrinin, azadolma və güzəştlərin öyrənilməsi;
- mədən vergisi və sadələşdirilmiş verginin vergitutma obyektinin, vergi dərəcələrinin, azadolma və güzəştlərin və vergilərin müvafiq büdcəyə köçürülməsi üzrə qaydaların müəyyənləşdirilməsi;
- beynəlxalq vergitutmanın xüsusiyyətlərinin müəyyənləşdirilməsi və öyrədilməsi.

***Planlaşdırlan təlim nəticələri***

Fənn tədrisinin sonunda tələbələr aşağıdakıları mənimsəməlidir:

- müxtəlif dövrlədə mövcud olmuş vergi sisteminin araşdırılması və düzgün təhlili;
- vergitutma sahəsində mövcud olan nəzəriyyələrin müqayisəli şəkildə təhlilinin aparılması;
- fiziki şəxslərin gəlir vergisinin hesablanması ilə bağlı məsələlərin sərbəst şəkildə işlənməsi;

- hüquqi şəxslərin mənfəət vergisinin hesablanması ilə bağlı məsələlərin sərbəst şəkildə həll edilməsi;
- ədv ilə bağlı məlumatların məsələlərin həllində tətbiqi;
- aksizlər və əmlak vergisinin hesablanması ilə bağlı məsələlərin işlənilməsi;
- torpaq və yol vergisinin hesablanması ilə bağlı məsələlərin sərbəst şəkildə işlənməsi;
- mədən vergisi və sadələşdirilmiş vergilərlə bağlı məsələlərin həll yollarının mənimsənilməsi;
- xarici ölkələrin vergi sistemlərinin müəyyənləşdirilməsi;
- Azərbaycanın vergi sistemi öyrənildikdən sonra beynəlxalq vergitutmanın xüsusiyyətləri ilə müqayisə təhlilinin aparılması.

*Fənn üçün 60 saat (5 kredit) verilir. Fənn 15 həftəlik bir semestr ərzində tədris olunmaq üçün hazırlanmışdır. Hər həftədə iki saat mühazirə və iki seminar var.*

***Fənnin tematik təqvimi***

**2.2. Fənnin mövzular üzrə planı**

| **№** | **Mövzunun adı** | Dərs yükünün həcmi (saat) | | |
|---|---|---|---|---|
| | | **Cəmi** | **Mühazirə** | **Seminar** |
| **1** | **2** | **3** | **4** | **5** |
| 1 | Vergilərin yaranması, və inkişaf tarixi | 4 | 2 | 2 |
| 2 | Vergitutmanın nəzəriyyələri | 4 | 2 | 2 |
| 3 | Vergitutmanın iqtisadi mahiyyəti, prinsipləri və funksiyaları | 4 | 2 | 2 |
| 4 | Azərbaycan Respublikasında vergi münasibətləri iştirakçılarının hüquqları,vəzifələri və məsuliyyəti | 4 | 2 | 2 |
| 5 | Vergi nəzarəti. Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət | 8 | 4 | 4 |
| 6 | Vergilərin hesablanması və ödənilməsi qaydaları | 4 | 2 | 2 |
| 7 | Fiziki şəxslərin gəlir vergisi | 8 | 4 | 4 |
| 8 | Hüquqi şəxslərin mənfəət vergisi | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 9 | Əlavə dəyər vergisi | 4 | 2 | 2 |
| 10 | Aksizlər. Əmlak vergisi | 4 | 2 | 2 |
| 11 | Torpaq vergisi. Yol vergisi | 4 | 2 | 2 |
| 12 | Mədən vergisi. Sadələşdirilmiş vergi | 4 | 2 | 2 |
| 13 | Beynəlxalq vergitutmanın əsasları. Dövlət rüsumu və birdəfəlik rüsumlar. | 4 | 2 | 2 |
| | Cəmi: | 60 | 30 | 30 |

***Mühazirənin quruluşu.***

Mühazirə müddəti 80 dəqiqə əyani olaraq auditoriyalarda keçirilir. Mühazirə zamanı mövzu ilə bağlı qeydlər etmək tələbələrin məsuliyyətidir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından əldə edilə bilər.

Mühazirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Eyni zamanda, çətin mövzu hərtərəfli müzakirə ediləcək, aydınlaşdırılacaq və izah ediləcək. Mühazirə zamanı tələbələr mühaziräçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və ya aydınlaşdırmasını tələb edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin internet resurslarından istifadə etmələri məsləhətdir.

Mövzuya ayrılan saatların 25% -dən çoxunda iştirak etməyən tələbələr imtahana buraxılmırlar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı).

***Seminar***

Seminar mövzuları və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Hər seminar üçün iki saat vaxt verilir. Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunu və onun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir. Cavablar əzbərlənərsə və səthi olarsa, tələbənin fənni mənimsəmədiyi hesab olunur.

Hər tələbədən mövzu ilə əlaqəli bir təqdimat hazırlamaq tələb olunur. 10-15 dəqiqəlik təqdimatlar əvvəlcədən hazırlanmalıdır. 10-15 slayddan ibarət ola bilər. Təqdimatın sonunda nəticələri ümumiləşdirmək lazımdır. Təqdimatdan sonra mövzu bütün auditoriya tərəfindən müzakirə olunur. Tələbələrə əhatə olunan mövzu ilə bağlı test

sualları da təqdim olunur. Tələbələr hər dərsdə sual cavabda aktiv iştirak etməli, mövzunu sərbəst, aydın, ardıcıl danışmağı bacarmalıdır.

***Tələbələr üçün tövsiyələr:*** *Tələbələr auditoriyada fəal iştirak etməkdən, sual verməkdən, fikirlərini bildirməkdən və səhv etməkdən çəkinməməlidirlər.*

## *Sərbəst işlər*

Fərdi tapşırıqlar müəllim tərəfindən təyin olunmuş vaxtda təqdim edilməlidir. Fərdi tapşırıqlar iki səhifədən az olmamalıdır. Fərdi tapşırıqlar tələbənin fəsli tam başa düşdüyü zaman qəbul edilir. Əks təqdirdə, tapşırıq qəbul edilmir və ümumi baldan çıxılır. Fərdi tapşırıqların gec təqdim edilməsi qəbul edilmir və qiymətləndirilmir. Bununla birlikdə, növbəti ayın balları hesablanarkən, yuxarıdakı şərtlər daxilində fərdi tapşırıqlar yenidən təqdim edilə bilər.
Bundan əlavə olaraq, ədəbiyyat icmalı, qrup və ya fərdi şəkildə təqdimatlar, sorğu və müəllimin müəyyənləşdirdiyi digər formada aparıla bilər.

## *İmtahan*

İmtahan beş sualdan ibarət olacaqdır. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə razılaşmırsınızsa, bu məqsədlə Universitet tərəfindən yaradılanApelyasiya komissiyası şikayət edə bilərsiniz. Apelyasiya komissiyası şikayətinizi əsaslı hesab edərsə, sizə yenidən imtahan vermək imkanı verilə bilər.

## *Qiymətləndirmə*

Kurs qiymətləri aşağıdakı cədvəldə qeyd edildiyi kimi dərsə davamiyyət, fərdi tapşırıqlar, seminar balları və buraxılış imtahanı balları ilə müəyyən ediləcək:

| Fəaliyyət növü | Maksimum qiymətləndirmə | Yekun qiymətləndirmənin %-i |
|---|---|---|
| Dərsə davamiyyət | 10 bal | 10% |
| Fərdi tapşırıqlar (10 mövzu) | Hər sərbəst işə 1 bal | 10% |
| Seminar nəticələri | 30 bal | 30% |
| İmtahan imtahan nəticəsi | 50 bal | 50% |
| Yekun kurs balı | 100 bal | 100% |

## *Tövsiyə olunan ədəbiyyat*

1.Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu,
Bakı-2002

2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı-2021

3. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi,Bakı-2020

4. Dövlət rüsumu haqqında Azərbaycan Respublikasının Qanunu,

Bakı-1995

5. F.Ə.Məmmədov, A.F.Musayev, M.M.Sadıqov, Y.A.Kəlbiyev, Z.H.Rzayev Vergilər və vergitutma , Bakı-2006

6. N.Novruzov, X.Hüseynov Maliyyə, Bakı-2007

7. M.Sadıqov, A.Hüseynov, V.Zeynalov Kooperativ maliyyə,Bakı-2007

8. Ekonomiksin əsasları N.Qreqori Menkyu Harvard Universiteti-2002

9. M.M.Sadıqov, M.C.Hüseynov, H.H.Həsənov Kənd təsərrüfatının maliyyəsi, Gəncə-2012

10. Y.A.Kəlbiyev Vergi siyasətinin konseptual əsasları və praktiki aspektləri , Bakı-2012